# Təbrik edirik

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 1



mart 2018-ci il tarixli sərəncamı ilə ölkəmizin ictimai siyasi həyatında fəal iştirak edən qadınların bir qrupu müxtəlif fəxri adlarla, orden və medallarla təltif olunub.

Təltif olunanlar arasında uzun illər rayonda müxtəlif vəzifələrdə müvəffəqiyyətlə çalışmış, hazırda Qızıl Aypara Cəmiyyəti Qəbələ Rayon Təşkilatının sədri işləyən Bayramova Sədaqət Əflatun qızı da vardır.

Sədaqət xanım hansı vəzifədə işləməyindən asılı olmayaraq öz prinsipiallığı, bacarığı, dəqiqliyi ilə seçilmiş, eyni zamanda rayonun ictimai həyatında, fəal iştirakilə digər qadınlara da nümunə olmuşdur.

Mart ayının 7-də Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev «Tərəqqi» medalını Sədaqət Bayramovaya təqdim etmişdir. Başçı bu yüksək mükafat münasibətilə Sədaqət xanımı təbrik etmiş, gələcək fəaliyyətində uğurlar arzulamışdır.

Sədaqət Bayramova onun fəaliyyətinə verilən bu yüksək qiymətə görə ölkə başçısı cənab İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Bizdə Sədaqət Bayramovanı yüksək mükafat münasibətilə təbrik edir, ona gələcək fəaliyyətində uğurlar arzulayırıq.

**«Qəbələ»**
**İlkin Vəlizadə (foto).**

# Qəbələ Regional "ASAN xidmət" Mərkəzində görüş

***Qəbələ Regional “ASAN xidmət” Mərkəzi region gənclərinin və mərkəz könüllülərinin inkişafı və maariflənməsi istiqamətində bir sıra innovativ görüşlər keçirir. Bu görüşlərdən biri də martın 4-də xalq yazıçısı, publisist, Respublika Yazıçılar Birliyinin katibi Çingiz Abdullayevlə olmuşdur.***

Mərkəzin direktoru Əbdül Əliyev əvvəlcə Çingiz Abdullayevi mərkəzdə göstərilən xidmət işləri ilə yaxından tanış etmişdir.

Tədbiri açan Əbdül Əliyev dəvəti qəbul edərək Qəbələyə gəldiyinə görə yazıçıya öz dərin minnətdarlığını bildirmişdir. O, silsilə şəklində keçirilən belə görüşlərin gənc nəslin maariflənməsi və onların faydalanması istiqamətində mühüm



amillərdən biri olduğunu vurğulamışdır.

Görüşdə müəllifin iştirakı ilə onun bir çox əsərləri ətrafında müzakirələr aparılmışdır. Maraqlı keçən görüş auditoriyanı maraqlandıran sualların cavablandırılması ilə yekunlaşmışdır.

Tədbirdən sonra ABAD sərgi-satış mağazası ilə yaxından tanış olan qonaqlara mərkəzin kollektivi adından ABAD məhsullarından ibarət hədiyyələr təqdim edilmişdir.

**“Qəbələ”**

# Şəffaflıq vergi sahəsində aparılan islahatların əsasını təşkil edir

Qəbələ Mədəniyyət Mərkəzində Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəhbər işçilərinin vergi ödəyiciləri ilə görüşü olmuşdur.

«Vergilər: şəffaflıq və inkişaf» mövzusuna həsr olunmuş tədbiri Azərbaycan Respublikası Vergilər Nazirliyinin ərazi vergi orqanları ilə iş departamentinin baş direktoru Elçin Bəylərov açmış, vergi orqanları və vergi ödəyiciləri qarşısında duran vəzifələr barədə geniş çıxış etmişdir.

Elçin Bəylərov çıxışında vergi qanunvericiliyi, son vaxtlar vergi sistemində aparılan islahatlar, sahibkarlığın inkişafını daha da gücləndirmək işində vergi orqanlarının və vergi ödəyicilərinin üzərinə düşən vəzifələr barədə ətraflı məlumat vermişdir.



Elçin Bəylərov qeyd etmişdir ki, vergi orqanları və vergi ödəyiciləri bütün işlərini bu sahədə mövcud olan qanunlara uyğun qurmalıdırlar. Bunun üçün birinci növbədə bu sistemdə şəffaflıq tam təmin olunmalıdır. Natiq son vaxtlar respublikada vergi sahəsində aparılan islahatlardan geniş bəhs etmişdir.

Vergilər Nazirliyinin vergi qanunvericiliyinin icrasına nəzarət departamentinin baş di-



rektoru Zöhrab Ömərov vergi orqanları tərəfindən aparılan yoxlamalar və onların təkmilləşdirilməsi barədə danışmışdır. O bildirmişdir ki, vergi orqanları tərəfindən aparılan yoxlamalar sahəsində geniş islahatlar həyata keçirilir. Yoxlamalar operativ nəzarət tədbiri kimi artıq küçə, məhəllə seçimi ilə deyil, zəruri hallarda vergi ödənişindən yayınmaqda şübhə yaradan vergi ödəyicilərinə məxsus obyektlərdə aparılır. Zöhrab Ömərov bütün vergi ödəyicilərini mövcud qanunlara tam şəkildə əməl etməyə çağırmışdır.

Vergilər Nazirliyinin vergi öhdəliklərinin icrasına nəzarət departamenti baş direktorunun müavini Rəsul Hüseynov vergi orqanları ilə vergi ödəyiciləri arasında sağlam, qanunvericiliyə uyğun münasibətlərin qurulması zərurətindən danışmışdır.

Tədbirin sonunda vergi ödəyicilərindən Elman Rəhmanovun, Adil Əsgərovun, Yaqub Əhmədovun və digərlərinin çoxsaylı sualları cavablandırılmış, təklifləri dinlənilmişdir.

**Qüdrət SƏMƏDOV,**
**Səhrab Umuyev (foto).**
**«Qəbələ»**

# Tədbir keçirilmişdir

***Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Qəbələ rayonu üzrə pilot layihəsi çərçivəsində silsilə tədbirlər davam edir.***



Martın 7-də rayonun ictimai-siyasi həyatında mühüm rolu olan Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, İsmayıllı Regional Mədəniyyət və Turizm İdarəsinin və Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin təşkilatçılığı ilə 8 Mart Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbir keçirilmişdir.

Rayonun və ümumilikdə dövlətimizin sosial-siyasi həyatında qadınların rolundan tədbir iştirakçılarına söhbət açan Elmi-Metodiki Mərkəzin direktoru Asif Usubəliyev bu sahədə aparılan dövlət siyasəti haqqında tədbir iştirakçılarına geniş məlumat vermişdir.

Tədbir Qəbələ İncəsənət Məktəbinin hazırladığı konsert proqramı ilə davam etdirilmişdir.

Yekunda Heydər Əliyev Mərkəzinin direktoru Zərxanım Ağayeva tərəfindən rayonun fəal qadınlarına mərkəzin mükafatları təqdim olunmuşdur.

**Rais RƏŞİDOV,**
**Səhrab Umuyev (foto).**
**”Qəbələ”**

# Beynəlxalq Qadınlar Günü qeyd olunub

***Martın 7-də MKS-nin Mərkəzi kitabxanasında 8 Mart Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirə mərkəzləşdirilmiş kitabxanalar sisteminin kollektivi, rayonun ictimai-siyasi həyatında fəal iştirak edən qadınların bir qrupu və şəhər məktəblərinin yuxarı sinif şagirdləri qatılıb.***

Bayram tədbirini MKS-nin direktoru Anar Rüstəmli açaraq toplantı iştirakçılarına, o cümlədən əksəriyyəti qadınlardan ibarət olan kitabxana kollektivinə təbriklərini çatdırıb.

Tədbirdə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Rayon Təşkilatının sədri Malik Ağayev, mərkəzi kitabxananın metodik şöbəsinin müdiri Maarif Həsənov və digərləri çıxış edərək qadınları təbrik ediblər.



Məktəblilərin hazırladıqları bədii hissədə xoş anlar yaşanıb. Ana, qadın, gözəllik, saflıq mövzusunda şeirlər və mahnılar səsləndirən şagirdlər bütün anaları, qadınları təbrik ediblər.

**Xalidə MƏMMƏDOVA,**
**MKS-nin şöbə müdiri.**